# Fəxri xiyaban ziyarət edilib



Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar Elm və Təhsil Nazirliyinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıb.



# Təhsil müəssisələrində anım tədbirləri keçirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki təhsil müəssisələrində ulu öndər Heydər Əliyevə həsr olunmuş tədbirlər təşkil olunub.

Bu barədə "Azərbaycan müəllimi"nə BŞTİ-dən məlumat verilib.

Anım tədbirlərində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.




Tədbirlərdə Heydər Əliyevin nəsillərə nümunə olan həyat və fəaliyyətindən, onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətlərindən, Azərbaycanın müstəqilliyi yolunda atdığı uğurlu addımlardan bəhs olunub. Ulu Öndərin Azərbaycana rəhbərliyinin bütün dövrlərində yürütdüyü uzaqgörən siyasət nəticəsində ölkəmizin nüfuzunun artması, hərtərəfli inkişafa nail olunması, müstəqilliyimizin əbədi və dönməzliyinin tam təmin edilməsi barədə şagirdlərə ətraflı məlumat verilib. Dahi Liderin diqqət və qayğısı sayəsində digər sahələr kimi, təhsil sahəsində də böyük nailiyyətlərin əldə olunduğu vurğulanıb.

Həmçinin Azərbaycan xalqının yaddaşında Heydər Əliyevin qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşadığı, əziz xatirəsinin daim ehtiram və minnətdarlıqla yad edildiyi bildirilib.

Tədbirlərdə Heydər Əliyevin siyasi xəttinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, Azərbaycanın dövlət quruculuğu yolunda inamla irəlilədiyi, ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunduğu şagirdlərin diqqətinə çatdırılıb.



Anım tədbirlərində məktəblilər Ulu Öndərə həsr olunan şeirlər söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər. Həmçinin Heydər Əliyevin həyat və fəaliyyətinə dair videoçarxlar təqdim olunub.

Paytaxt məktəblərinin müəllim və şagird kollektivlərinin Heydər Əliyevin anım günü ilə bağlı Fəxri xiyabana ziyarətləri də təşkil edilib.

***

Bakıdakı Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəbdə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş Respublika konfransı keçirilib.

Konfransdan öncə qonaqlar şagirdlərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni oxunub, Ulu Öndərin, şəhidlərin xatirəsi ehtiramla anılıb.

Konfransda məktəbin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Almaz Həsrət, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon təşkilatının sədri Vüsar İsmayılov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Knyaz Aslan, pedaqogika üzrə fəlsəfə doktoru Nailə Mehrəliyeva, Mətbuat Şurası İdarə Heyətinin və İTV Yayım Şurasının üzvü, Əməkdar jurnalist Azər Həsrət və başqaları çıxış edərək Ulu Öndərin tarixi xidmətlərindən və xilaskarlıq missiyasından bəhs edib, dahi şəxsiyyətlə bağlı xatirələrini bölüşüblər.

Azərbaycan müəllimi.- 2024.- 14 dekabr, №46.- S.2.